# İŞĞALDAN AZAD EDİLMİŞ ƏRAZİLƏRDƏ ANTROPOGEN AMİLLƏRİN KƏND TƏSƏRRÜFATI HEYVANLARININ XƏSTƏLİK TÖRƏDİCİLƏRİNƏ TƏSİRİ

**Vəli Qarayev**

*Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin Genetik Ehtiyatlar İnstitutu, veli.qarayev@rambler.ru*

Biomüxtəliflikdən istehlak məqsədilə müxtəlif şəkildə istifadə olunması əhalinin ərzaq məhsulları ilə təminatında mühüm əhəmiyyət kəsb edir. Bu işdə məhsuldar kənd təsərrüfatı heyvanları da mühüm rol oynayır. İşğaldan azad edilmiş rayonlarda heyvandarlıq məhsullarının keyfiyyətinin yüksəldilməsi onların yetişdirilməsində normal yemləmə (yemin tərkibindən, yemin tərkibi isə torpağın münbit olmasından) asılıdır. Heyvan mənşəli ərzaq məhsullarının kəmiyyət və keyfiyyət göstəricilərinin yüksək olması, həm də məhsuldar kənd təsərrüfatı heyvanlarının sağlamlığından asılı olmaqla, infeksion, parazitar və qeyri yoluxucu xəstəliklərlə sirayətlənmə səviyyəsindən asılıdır.

Bölgədə antropogen fəlakətlərdən (erməni terroru) sonra ayrı-ayrı ərazilərdə xəstəlik törədicilərinin mövcud vəziyyətinin müəyyənləşdirilməsi, flora və faunanın, su və torpaq ehtiyatlarının aqroekoloji səviyyəsinin öyrənilməsi, bərpası, onların səmərəli və təhlükəsiz istifadəsi sahəsində tədqiqatların aparılması aktualdır. Odur ki, işğaldan azad edilmiş ərazilərdə yetişdirilən kənd təsərrüfatı heyvanlarının yoluxucu xəstəlik törədiciləri və yoluxucu olmayan xəstəlikləri yaradan amillərlə sirayətlənməsi baxımından mövcud aqroekoloji şəraitin qiymətləndirilməsi mühüm əhəmiyyət kəsb edir. İşğal edilmiş ərazilərin uzun müddət ölkənin dövlət baytarlıq və aidiyyatı digər qurumlarının nəzarətindən kənarda qalması səbəbindən aqroekoloji şəraitinin öyrənilməsi, yoluxucu xəstəlik törədicilərinin, onların rezervuarlarının (biogen və abiogen faktorların) və aralıq sahiblərinin tədqiqi müvafiq qaydalara uyğun olaraq kompleks şəkildə həyata keçirilməlidir.

Nəzərə alınmalıdır ki, vəhşi təbiətdə bir çox infeksion və parazitar xəstəlik törədicilərinin rezervuarları, yayıcıları olan onurğalı vəhşi heyvanlar və onurğasız aralıq sahiblərin biosenozunun pozulmasının kənd təsərrüfatı heyvanlarının epizootologiyasında əsaslı dəyişikliyə səbəb olması istisna edilmir. İşğal müddətində ekoloji terror nəticəsində vəhşi təbiətdə heyvanların birgəyaşayış səviyyələrinin pozulması ilə vəhşi heyvanların yaşayış sahələrinə və heyvandarlıq təsərrüfatlarına çox sayda hücumları, kənd təsərrüfatı heyvanlarına və insanlara ciddi xəsarət yetirmələri, bunun kütləvi ölüm halları ilə nəticələnməsi, həm də yoluxucu xəstəliklərin (zoonozların) yayılması baxımından epizootoloji əhəmiyyət kəsb edir. Bununla belə, atropogen (erməni terroru) təsirin, həm də törədicisi yoluxucu olmayan xəstəliklərin (çoxsaylı partlamış minalardan torpağın və suyun tərkibinin orqanizm üçün zərərli, zəhərli olması, partlayış sahəsində biomüxtəlifliyin məhv olması) baş verməsindəki rolu nəzərə alınaraq, bu sahədə də elmi tədqiqatların aparılması, müvafiq xəstəlik amillərinin müəyyənləşdirilməsi baxımından mövcud aqroekoloji şəraitin qiymətləndirilməsi də elmi tədqiqatçıların qarşısında duran vacib məqsədlərdəndir.